AMEA Rəyasət Heyətinin 18 iyul 2013-cü il tarixli 148№-li sərəncamına əlavə

İnstitutların elmi fəaliyyətinin qiymətləndirilməsi üçün tələb olunan məlumatlar (2008-2013-cü illər üzrə)

1. Elmi işçilərin sayı.

2. Çap olunmuş məqalələrin sayı. Hər il üzrə ayrı. (Tezislər daxil deyil).

3. Web of Science bazasına daxil olan jurnallarda, Springer, Elsevier, Academic Press və digər tanınmış nəşriyyatlarda çap olunmuş məqalələrin sayı.

(Jurnalın adı, ili, nömrəsi, səhifələri və müəlliflərin adları göstərilməklə).

4. İnstitutun elmi işçilərinin əsərlərinə olan isnadların sayı. Bu məlumat Google Scholar-dan götürülür.

(Hansı jurnalda isnad olunub. Elmi işçinin, məqalənin adı, jurnalın adı, ili, nömrəsi və səhifələri. Hər məqaləyə olan isnad müəlliflərin sayına bölünməlidir).

5. İnstitutun elmi işçilərinin xarici alimlərlə birgə aldıqları beynəlxalq qrantların, Web of Science daxil olan, Şpringer, Elsevier, Academic Press və digər tanınmış nəşriyyatlarda, Rusiya, Ukrayna, Qərbi Avropa, Amerika, Kanada və Asiyanın aparıcı jurnallarında çap olunmuş birgə məqalələrinin sayı.

6. İnstitutun alimlərinin Qərbin və Asiyanın aparıcı elmi mərkəzlərinə dəvətlərinin (məlumat Mərkəzin İnternet saytında yerləşdirilməlidir və yaxud dəvətnamə məktubu təqdim olunmalıdır), Web of Science daxil olan, Şpringer, Elsevier, Academic Press və digər tanınmış nəşriyyatlarda, Rusiya, Ukrayna, Qərbi Avropa, Amerika, Kanada və Asiyanın aparıcı nəşriyyatlarında çap olunan jurnalların redaksiya heyətlərində üzv olmaqlarının sayı.